# UZUN SÜRƏN CAVANLIQ



***Qısa arayış:*** *Nizaməddin Şəmsizadə – 1954-cü il dekabrın 30-da Quba bölgəsinin qədim türk obası – İspik kəndində anadan olub. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini 1977-ci ildə bitirib. 1978-1990-cı illərdə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda baş laborant (1978), kiçik elmi işçi (1981), baş elmi işçi (1986) kimi elmi fəaliyyət göstərib. 1982-ci ildə namizədlik, 1990-cı ildə doktorluq dissertasiyaları müdafiə edib. 1985-ci ildən SSRİ Yazıçılar İttifaqının (indiki AYB) üzvüdür. 1990-cı ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində elmi-pedaqoji fəaliyyətini davam etdirib: müsabiqə yolu ilə baş müəllim (1990), dosent (1991), professor (1992) seçilib. 1901-ci ildən 2006-cı ilin sentyabr ayınadək "Ədəbiyyat və dillər", "Ədəbiyyat və Azərbaycan dili" və "Ədəbi yaradıcılıq" kafedralarının müdiri vəzifəsində işləyib. 2002-ci ildə Tiflisdə Qafqaz Xalqları Elmlər Akademiyasının həqiqi üzvü seçilib. Elmi xidmətlərinə görə akademik Y.Məmmədəliyev mükafatının (2003) laureatıdır. "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı (müştərək) kitabına görə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülüb (2010). BDU-nun nəzdində Dissertasiya Şurasının və Bakı Xoreoqrafiya Akademiyasının Elmi Şurasının üzvü olmuşdur. 2007-2012-ci illərdə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun "Ədəbiyyat nəzəriyyəsi" şöbəsinin müdiri vəzifəsində işləyib. Hal-hazırda Bakı Dövlət Universitetinin professorudur.*

Dekabr ayı ailəmiz üçün ilin sonu, Dünya Azərbaycanlılarının Həmrəylik Günü, təqvimin yeniləndiyi gündən əlavə, atamın doğulduğu ay kimi bayramdı. Şəxsiyyət vəsiqəsində 1 iyul yazıldığından həmişə nənəmlə söhbətlərimdə bu məsələyə aydınlıq gətirməyə çalışırdım (ötən əsrdə rayon yerlərində "yaş kağızını" gec aldıqları üçün uşaqların çoxuna eyni tarix yazılırdı): Nəticədə anladım ki, sabah bayram olacaqdı, bu gün Nizaməddin doğulub. 60 yaşına yaxın atam müsahibələrinin birində – "Əhməd bəy Ağaoğlu öz tərcümeyi-halında yazmışdı: "64 senenin içindeyim. İlahi, nə böyük tarix!", özü haqqında isə atam: "60 yaşın içindəyəm, insan bu qədər yaşayarmı?!"" – demişdi.

Övlad üçün valideyn yüz il yaşasa da, azdır.

Dekabr ayının ilk günlərindən atam dostları ilə (ad günü münasibətilə) məclislərdə olub. Bu il isə, 65 yaşının astanasında, dekabr ayı girməmiş, atam xəstəxanadadır. Bu yaşının ən böyük sevinci "Əməkdar elm xadimi" fəxri adı alması oldu.

Bakı Dövlət Universitetinin 100 illiyi münasibəti ilə, Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə ölkə başçısı İlham Əliyev Universitetin

müəllimlərini Azərbaycan Respublikasının fəxri adları ilə təltif etmişdir. “Əməkdar elm xadimi” adı atamı çox sevindirdi. Səhhəti mane olsa da, məktub yazdı. Möhtərəm Prezidentimiz İlham Əliyevə, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə və filologiya fakültəsinin dekanı Elçin Məmmədova öz təşəkkürünü bildirdi. Qəzetə göndərməyimizi istədi. Çox sevinirdi. Yaxşı danışa bilmirdi. Əllərini göyə tutaraq, Allaha şükür etdi.

Bu yazını yazdığım zaman kəsiyində atam reanimasiyadadır.

***“Mən əzab soyudub, dərd əridirəm,***
***Bu da başqa cürə yazıdı bəlkə”*** *(Musa Yaqub).*

Ötən il reanimasiyada ayılanda xəstəxanada ikən yazmışdı.

***Özüm***
***Reanimasiyada – ömürlə ölüm arasında***
***Son dayanacaq...***
***Kimi gedəcək, kimi qalacaq.***
***Biri meyitxanada, biri toyxanada.***
***Yuxusuz həkimin kal səsi – kəsilir xəstənin nəfəsi:***
***Nəfəs verin,***
***sistem vurun.***
***Daha gecdir,***
***qanı donub.***
***Xəstə yaşamaqdan yorulub.***

İlk dəfəydi onu bu qədər yatan və iştahsız görürdüm.Taqəti tükənib, rahatlanmaq istəyir. Hər gözlərini açanda dünyadan küskün kimi baxışlarını bir nöqtəyə zilləyərək, öz həyatına sanki kənardan baxırdı; seyrçi kimi. (Dikib gözlərini şah zirvəsinə, bəhrəli bağların aynası Quba). Yatmaq, yeməmək və danışmamaq atama aid deyil. Bu xüsusiyyətləri görəndə qorxuram. Bir saat yuxudan gec ayılanda “sanki cinayət eləmişəm” deyən insan artıq yeddi gündür yatır. Bütün sualları “şirin yuxum gəlir” deyə cavablandırır.

İki gün öncə yanında olarkən həkimlərin “nə istəsə, nə yeyə bilsə, yesin”-sözlərinə qımışdı. Təzyiqi normallaşandan sonra çətinliklə də olsa dedi: “Fidan, görürsən, yeyib-içməyəndə insan nə hala düşür?”. Tez-tez anasını xatırlayırdı:

***Başım üstə layla çalan,***
***Səni torpaqlara verib***
***Bu dünyada tənha qalan***
***Oğlundan xəbərin varmı?!***

Musiqiçi öz səsi ilə insanların diqqətini öz şərqisinə cəlb etdiyi kimi, yazıçı-alim də milyonların qəlbini öz sözünün sehrinə bələyir. İlahi vergi olan istedad hər kəsdə bir şəkildə təzahür edir. Atamın fenomenal hafizəsi və sözə məhəbbəti var. O, hər şeyi sözdən umur. Söz insan cismini yaşadan ruhun görünən formasıdır.

***Məni ədəbiyyata məhəbbətim qoruyub*** – deyir atam.

Abdulla Abbasov haqqında məqaləsində “ədəbiyyata məhəbbət insanı uzun yaşadır” yazmışdı. O, uzun sürən cavanlıq keçirmişdir, amma sürətlə qocalır, bəlkə sözdən inciyib, ya ədəbiyyatdan... əsəbiləşəndə Sabirin şeirləri, darıxanda Füzulinin qəzəlləri ilə ovunan insan ruhdan düşməməlidir. Kişi əgər xatirə danışırsa, gözəlliyə biganədirsə, o artıq qocalır - deyir.

***Qolum sınıq, ayağım kəsik.***
***Nə gəzə bilirəm, nə də gözəlliyi görürəm.***
***Özüm üçün xəyaldan***
***Yeni ömür hörürəm.***
***Xoşbəxtlik sarayı tikirəm***
***Qara-qura fikirlərdən.***
***Özüm özümə gülürəm.***

“Duman” şeirlər kitabının avtoqraf yerinə qeyd etdiyi kimi, şairlik iddiasında deyil, sadəcə, könlü dünya ilə savaşda qəzaya uğrayıb. Beləcə, şeirləri yaranıb...

Müsahibələrinin birində deyir: “Allah sevən qəlblərdə gecələyir”. Atam bu ana qədər sevərək yaşayır. Xəstəxanalarda həyatı sevdiyindən necə mübarizə apardığının şahidiyəm. Atamın yanında kövrəlməyi sevmirəm, o, məni möhkəm iradəli görmək istəyir, “mənim oğlumsan”- deyib həmişə mənə. Noyabr ayının son günlərində xəstəxanada dializdə həmişəki kimi yanında idim. Saçımı sığalladı, ovuclarını üzümdə gəzdirdi, gözlərində bir həsrət vardı, gözlərinin rəngi daha da göyərdi, sanki mavi sulardan bir neçə damcı istədi, ağladı...

Mən darıxanda Vaqif Səmədoğlunun şeirləri ilə Allaha sığınıram, “Mən burdayam, İlahi...” deyirəm.

***Gözmü dəydi izlərimə***
***Yerə vurdun sözlərimi***
***Dindi yerin sarı simi***
***Yaz göndərim gözlərimi***
***Harda ağlamaq istəsən*** *(V.Səmədoğlu).*

Mənim üçün ən əziyyətli məqam atamdan nə isə istəməkdir. Bir dəfə ona hekayələr yazdığımı və onu nəşr etdirmək istədiyimi demək əvəzinə, qırıb tökdüyüm cümlələrimi qısa kəsib “yaman yoruluram” dedi. Sonralar anladım ki, İnsanların demədiklərini duymaq onu daha çox yorur. Fikirləşdim ki yəqin məni nə dinlədi, nə də anladı. Növbəti ay mənim bir tədbirdən olan şəklim və oxuması üçün aylardı yazılarının üstünə qoyduğum hekayəm “Azərbaycan” jurnalında dərc olunmuşdu. Sevincimi biruzə verə bilmirdim. Hekayəm – yaşlı professorun atasını itirərək, bu dərdin işığında ötənləri xatırlamasından bəhs edirdi və “Qəm işığ”ı adlanırdı. Ən qəribəsi isə hekayəmin babam rəhmətə getdiyi zaman nəşr olunmasıdır. Atam çox sonralar etiraf etdi ki, hekayədə olanları yenidən xatırladım, sənin hisslərin qeyri-adidir, çalışsan, yazıçı ola bilərsən.

Atam qarlı qış günündə dünyaya göz açıb. Şeirində bu barədə vurğuladığı kimi....

***Dekabrın 30-da***
***Bu dünyaya gəldiyim gün***
***Mən mənimdən ayrılmışam,***
***Mənsizliyə qatılmışam.***
***Bilirəm ki, lap bu günlər***
***Qanad açıb uçacağam.***
***Qonub tanrı dərgahına,***
***O görünməz ilahinin***
***ayağını qucacağam.***

Ədəbiyyat gözəllikləri təcəssüm etdirən bədii fikir sahəsidir. Atamın mənsub olduğu ədəbi nəsil ədəbi tənqiddə ənənələrin, nəsillər arasında tarixi bağların qorunub saxlanılmasına nail olmuşdur. 20-30-cu illərə aid çıxışlarına və tədqiqatlarına görə Qulu Xəlilov atamı üsyankar zadəgan kimi “dekabrist” adlandırmışdı. “...o sözün həqiqi, böyük mənasında tənqidimizin dekabristi idi” (Asif Rüstəmli).

**“Ən etibarlı yaddaş qan yaddaşıdır. Yaddaşımızın qan izi biz özümüzük. Qanla birgə damarda axmayan yaddaş, xalqı özünə tanıtdıra bilməz” (N.Şəmsizadə).**

“Türkün qalxanı tarix boyu yalnız bir şeyə, yaddaşa enən qılınca qarşı bu qədər zəif və biganə olmuşdur” (Y.Qarayev). Bir xalqın torpaqları bölünürsə, onun həm də düşüncə tərzi, yaddaşı da işğal olunur. Ədəbiyyat – mədəniyyət tariximizi, tarixi şəxsiyyətləri və ümumiyyətlə bütün prosesləri yaşadan böyük bir abidədir. Akademik Bəkir Nəbiyevin 80 illik yubileyi münasibəti ilə “Elmin və ömrün zirvəsinə qalxan alim” məqaləsində yazdığı fikirlər atamın özünə də aiddir: “Müqəddəslərin müqəddəsi, Allahdan sonra yaranmış sözlə ünsiyyətdə olmaq, onu sevmək, dilə gətirmək, ərşdən gəlmiş sözü qəlb evində sakin etmək, yaradanın həmd-sənası olan sözün nazını çəkmək, kəmali-hüsnünə təriflər söyləmək – tənqidçi olmaq çox böyük səadətdir”. Çox xoşbəxtəm ki, atam Nizaməddin Şəmsizadə tənqidçi, ədəbiyyatşünas kimi tarix yarada bilib.

Yazı öz oxucusu ilə yaddaşlara hopur, tarixə çevirilir. Ədəbiyyat gələcəyə ən böyük ismarıcdır. “Tənqidin ədəbi prosesdə rolu” kitabında ədəbi prosesdə üç oxucu tipi – adi oxucu, tənqidçi-oxucu və sənətkar – oxucu haqqında zəngin elmi-nəzəri fikirləri vardır. Yaradıcılıqla məşğul olan insanlar təbiət və cəmiyyət arasında mənəvi körpü yaradaraq, əsərləri vasitəsilə insanda ən dəruni hissləri yaşada bilirlər. Biz – anlaşılmaz rəsm əsərində, gözəl bir musiqidə, yaxud köksün dar qəfəsindən çıxan sözlərdə yaşaya bilərik. Eyni zamanda, təbiət və insan arasındakı bu mənəvi gözəllikləri yaşadaraq, gələcək nəsillərə ötürə bilərik.

Bu yaxınlarda atam böyük həvəslə Musa Yaqubun şeirlərini oxuyurdu. Mədəniyyət Nazirliyi tərəfindən şairin gənc yaşlarından indiyədək qələmə aldığı, dillər əzbərinə çevrilmiş çoxsaylı şeir və poemalarından ibarət “Gərək bu sözümü daşlara yazam” yeni şeirlər kitabı hazırlanırdı. Ata kitaba “Daşlara yazılan söz” adlı ön sözü yazırdı. Şairin onun haqqında yazdığı şeirini xatırladı:

***Nizaməddin, qəm eləmə,***
***Bu dərdləri yığıb-yığıb***
***ürəyində cəm eləmə***
***Gəl bu yerdən varıb gedək,***
***Sən o üzdən, mən bu üzdən,***
***Üz tutaq dağlara sarı...***
***Sən “İspik”dən çıx yuxarı,***
***Mən də tutum bu axarı -***
***o tay sənin, bu tay mənim***
***Qaya daşı sırasına***
***qatar məni,***
***Əlçim bulud qucağımda***
***yatar mənim –***
***Gəl çıx, gedək Baba dağa.***

Ötən il Qubada olarkən atamın kitablarının arasından köhnə qeyd dəftərçəsi tapdım. Ümid haqqında maraqlı fikirlərlə rastlaşdım və əslində, çox sarsıldım. İllərlə işıq kimi ətrafına ümid saçan insan, sən demə, ümidin varlığına inanmırdı: “Ümid heç vaxt olmayanı vəd edən xeyirxah ana, kasıb atadır. Ümid insana şirin yuxudan başqa heç nə vermir. Ümid ay kimidir, səhər batır, axşam çıxır”.

Bu fikirlərin ardı kimi mən də ümidə olan güvənimdən yazdım: “Ümid – Allahın yer üzündəki adıdır. Ümid – yenidən Qubaya atamla gəlməkdir... ”

***Nə qədər yol getdim fikirlər ilə,***
***Hələ mənzilimin uzağı qalıb.***
***Üfüqlər dalında nə qədər hələ***
***Arzumun əlləri uzalı qalıb.*** *(Məmməd Araz).*

Atamın özü haqqında yazdığı “Mən kiməm” kitabı belə yekunlaşır: “Bütün çətinliklərə baxmayaraq, həyat davam edir – içində qürurum çiçək açır, təbəssümüm günəşlə bərabər gülümsəyir, idrakım meydan oxuyur, qəlbim ilahi nuru ilə süslənir və mən yaşayıram”. Fərid Hüseynin – “Söz sözə çevrilməyəndə” essesindəki bu fikirlə tam razıyam: “Sözlər ürəyimizdə dünya boydadı, vərəqdə hərf boyda”.

65 yaşın mübarək olsun, Ata! Sənə bu həyatda yalnız can sağlığı arzulayıram. Nəfəsin hələ uzun illər gəlsin. Mən bu həyat yoluna səninlə başlamışam, bu həyatı səninlə dərk etmişəm. Həyatım sənin nuruna boyanıb, işıq saçır. Uca Yaradan bu işığı çox görməsin mənə – bizə...

65 yaşın nurunda səni sevənlərin duasını istərəm, sənin üçün... Amin!

P.S. Kaş ki, “Azərbaycan” jurnalının bu sayı nəşr olunanda atam sağalardı...oxuyub məni tənqid edərdi...

***Fidan Nizaməddin qızı Abdurəhmanova***